

*Şirməmməd Hüseynov*

# BİBLİOQRAFİYA

*AZƏRBAYCAN RESPUBLİKASı TƏHSİL NAZİRLİYİ*
*BAKI DÖVLƏT UNİVERSİTETİ*

# *Şirməmməd Hüseynov*

# BİBLİOQRAFİYA

Bakı Universiteti nəşriyyatı
Bakı - 2004

M.F.Axundov adına
Azərbaycan MEK
Kitabxanası

*Tərtib edəni:* *Nüşabə Abbaszadə*

*Redaktor:* *Nəsiman Yaqublu*
*tarix elmləri namizədi*

***Şirməmməd Hüseynov***
Biblioqrafiya
Bakı Universiteti nəşriyyatı. Bakı, 2004,
səh. 96.

Biblioqrafiyada Bakı Dövlət Universiteti jurnalistika fakültəsi Mətbuat tarixi kafedrasının professoru, Azərbaycan Respublikasının Əməkdar jurnalisti Şirməmməd Ağaməmməd oğlu Hüseynovun həyatı, elmi-pedaqoji və ictimai fəaliyyəti barədə materiallar toplanmışdır.

© «Bakı Universiteti» nəşriyyatı, 2004.

# Müəllimliyin, tədqiqatçılığın və publisistikanın Şirməmməd Hüseynov məktəbi

«Yaradıcılıq məktəbi» anlayışı özündə çox dərin elmi, nəzəri, praktik mahiyyət daşıyan, ifadə etdiyi sahənin öz ətrafında davamçılarını yetişdirən yaradıcılıq məzmunu kəsb edir. Tarixdən bizə tanış olan yaradıcılıq məktəbləri ədəbi-bədii, elmi sahədə özünə qədər görünməmiş orijinal keyfiyyətə malik məqamlarla şərtlənir. Məktəb o qədər orijinal, o qədər dəyərli və o qədər praktik olmalıdır ki, onun yüzlərlə, bəlkə minlərlə şagirdi, deməli, davamçısı olsun. Bir də biz həmişə ədəbi məktəb deyəndə onun tarixi sınaqlardan çıxmasını, zamana, epoxaya sinə gərərək sabaha ünvanlandığını da mütləq nəzərə alırıq. Məktəbin yaradıcısı heç vaxt məktəb yaratmaq iddiasında olmur. O, sadəcə, təmsil etdiyi sahənin ən mükəmməl bilicisi, ən istedadlı yaradıcısı kimi taleyin axarı ilə irəliləyərək iddiasız-filansız şəxsiyyət timsalında bütöv bir yaradıcı nəslin önündə getməli olur. Belə şəxsiyyətlər yaradıcı olmaqla, həm də mütləq müəllim missiyası daşıyırlar. Amma bu yerdə «MÜƏLLİM» sözü mütləq böyük hərflərlə yazılmalıdır. Və bu böyük hərflər MÜƏLLİM-in

böyüklüyünü ifadə etmək üçün Tanrının verdiyi imkandır.

Titullarını təqdim etməyə ehtiyacı olmayan Şirməmməd Hüseynov belə yaradıcı şəxsiyyətlərdəndir və məhz bu keyfiyyətə malik müəllimlərdəndir.

İndi mən yeni abzası çox basmaqəlib bir cümlə ilə başlayacağam. Ona görə «basmaqəlib» ki, bu cümləni oxucu çox eşidib, çox oxuyub:

Tale Şirməmməd müəllimə çətin, lakin çox şərəfli bir ömür qismət eləyib. Çoxları üçün bioqrafik, basmaqəlib bu cümlənin Şirməmməd müəllimə birbaşa, müstəqim və mübaliğəsiz dəxli var. Şəkidə kasıb bir ailədə doğulub, kimsəsiz, havadarsız, ümidsiz bir həyat yoluna çıxıb. Hələ Şəkinin 2 nömrəli orta məktəbinin VI sinfində oxuyanda onun şer söyləmək istedadı, elmə, biliyə həvəsi barədə «Bakinski raboçi» qəzeti bütün ölkəyə xəbər verir. Amma nə fayda, onu nə axtaran olur, nə xüsusi qayğı göstərən tapılır. On yeddi yaşında Şəki şəhər İki İllik Müəllimlər İnstitutunun fizika-riyaziyyat fakültəsinə daxil olur. Sonralar tamam başqa istiqamətdə – həyatının mənasını tapdığı jurnalistika sahəsində çalışanda həmin bu «fizika-riyaziyyat» onun çox köməyinə gəlir: Riyazi təfəkkür Şirməmməd müəllimə həm öz tədqiqatlarında, həm də sözündə, əməlində riyazi dəqiqlik gətirir.

Ş.Hüseynov bu institutu bitirəndən sonra Şəkidə və Zaqatalada kənd məktəblərində iki il müəllim işləyir. Və mənə elə gəlir ki, Şirməmməd müəllim elə onda da indiki kimi qəti, dəqiq, alovlu, yaddaşlı, aydın nitqə malik bir müəllim olub. Amma belə bir müəllim əyalət adamı deyildi.

Tanrı, onun alın yazısına böyük bir şəhər yazmışdı: Bakı şəhəri. Bir də Tanrı onun alın yazısına elm və universitet auditoriyası kəlmələrini də əlavə eləmişdi. Bu alın yazılarının gerçəkləşməsi o zamankı Nuxanın «Nuxa fəhləsi» qəzetindən başlayır. Bu fizik və riyaziyyatçı müəllim geniş auditoriyaya ilk sözünü bu qəzetdə işlədiyi günlərdə deyib. Və onun bu günə kimi bağlandığı jurnalistika məhz «Nuxa fəhləsi»ndən başlayır. İki illik Şəki institutu, fizika-riyaziyyat...Şirməmməd Hüseynov bu çərçivəyə sığmaq üçün doğulmamışdı. İyirmi yaşlı bu cavan kənd müəlliminin - «Nuxa fəhləsi» qəzetinin müxbirinin xalqa deyiləsi sözü vardı. Bu sözü demək üçün rəsmi status də gərək idi. «Nuxa fəhləsi»nin müxbiri Bakıya – Azərbaycan Dövlət Universitetinə gəlir. Filologiya fakültəsində lap yenicə açılan jurnalistika şöbəsinə qəbul olunur. Lap elə ikinci kursdan universitet qəzeti redaktorunun müavini təyin olunur. Jurnalistika şöbəsinin ilk məzunlarından biri olan Ş.Hüseynov 1950-ci ildə Moskva Dövlət Universitetinin aspiranturasına qəbul olunur. Bu gün MDU-da, bütövlükdə Rusiyada jurnalistikanın bütün parametrlərdən – xüsusilə nəzəriyyəsi

istiqamətindən ən ciddi əsərlər müəllifi Yasen Nikolayeviç Zasurski, jurnalistika tarixinin mahir tədqiqatçısı Boris İvanoviç Yesin və s. azman alimlərlə aspirantura yoldaşı olur. Moskva Dövlət Universiteti jurnalistika fakültəsində 1962-ci ildən bu günə kimi dekan vəzifəsində işləyən, müasir jurnalistikanın dünya şöhrətli nəzəriyyəçisi, Amerika ədəbiyyatı mütəxəssisi Y.N.Zasurski öz aspirantura yoldaşı Ş.Hüseynov haqqında belə deyir: - Şirməmməd hələ aspirant illərindən Azərbaycanın böyük patriotudur. O elmi işində də, həyat qaydalarında da, dünyabaxışında da həmişə azərbaycanlıdır. Biz araq içməyə gedəndə, başqa əyləncələrə sərf etdiyimiz vaxtda Şirməmməd yataqxanada daha bir kitabı oxuyub başa çatdırırdı».

Jurnalistika üzrə Azərbaycanda və həmçinin Moskva universitetində ilk elmlər nami-zədi Ş.Hüseynov o zaman elə MDU-da qala bilərdi. Bu barədə təkliflərə və təkidlərə Şirməmməd müəllim təxminən elə Moskva Universitetinin məzunu H.Zərdabi kimi, Fransanın Sarbonna Universitetinin məzunu Ə.Ağaoğlu kimi cavab verir:

- Mən də Azərbaycana qayıtmasam, kim qayıdacaq?

1954-cü ildə o, Moskvadan Azərbaycan Dövlət Universitetinə qayıdır Jurnalistika kafedrasında ilk elmlər namizədi kimi işə başlayır. Əvvəlcə baş müəllim, dosent vəzifəsini tutur. Bir



azdan filologiya fakültəsində dekan müavini, 1969-cu ildə yaranan jurnalistika fakültəsinin ilk dekanı, Mətbuat tarixi kafedrasının müdiri, bundan sonra həmin kafedranın professoru...

Ş. Hüseynov dəfələrlə Moskvada, Praqada, Türkiyədə, Gürcüstanda, Qazaxıstan-da... jurnalistikanın problemlərinə dair elmi konfrans və simpoziumlarda məruzələr etmişdir. İki dəfə «Qızıl qələm» mükafatına, H.Zərdabi, Y.Məmmədəliyev, M.Ə.Rəsulzadə adına mükafatlara layiq görülüb Respublikanın Əməkdar jurnalistidir.

Ömrünün 80 ilinə gəlib çıxmış Ş.Hüseynovun bioqrafiyasının bəzi məqamları bunlardır. Əlbəttə, qısa teleqraf sətirləri ilə bütün bunları bir neçə səhifəyə sığışdırmaq o qədər də çətin deyil. Lakin bu yolun mahiyyətini, xarakterini ifadə etmək çox mürəkkəb vəzifədir.

Bu gün Bakı Dövlət Universiteinin jurnalistika fakültəsində çalışan bütün kollektivin, o cümlədən bu sətirlərin müəllifinin bir xoşbəxtliyi də var: Biz hamımız Ş.Hüseynovun tələbələriyik. Bütün Azərbaycanda peşəkar jurnalistlərin hamısı Ş.Hüseynovun tələbəsi olmuşdur. O, hər kəsdən əvvəl müəllimdir -- jurnalistlərin müəllimi. Ona görə də onun şəxsiyyətindən bəhs edərkən ilk növbədə müəllimliyindən danışmaq lazımdır.

Ş..Hüseynovun, yeni və dəbdə olan terminlə desək, müəllimlik imici klassik mahiyyət daşıyır. Ə.Haqverdiyev, A.Şaiq, Y.Məm-

mədəliyev və s. kimi klassik müəllim keyfiyyəti ona da xasdır. Bu keyfiyyətin başında ***azərbaycançılıq*** dayanır. Onun azərbaycançılığı H.Zərdabidən, M.F.Axundovdan, Mirzə Cəlildən, M.Ə.Rəsulzadədən, Ü.Hacıbəylidən gəlir. Sovet hakimiyyətinin ən qızğın ideoloji çağında universitet auditoriyasında onun iki məqsədi vardı: tələbəni Azərbaycana məhəbbət ruhunda böyütmək, tələbəni peşəkar jurnalist görmək.

Əlbəttə, hər müəllim istədiyini heç də hamıya təlqin eləyə bilmir. Amma Şirməmməd müəllimin auditoriyasından çıxıb vətəndaş olmamaq mümkün deyil.

Sovet dövründə «Kollektiv sosializm yarışını genişləndirərək dövlət planını ikiqat yerinə yetirmişdir» tipli dəbdə olan basmaqəlib jurnalist cümləsinə qarşı Şirməmməd müəllim hələ o zaman tez-tez deyirdi: «Bu sosializm yarışını çox genişləndirib, axırda partladacaqlar». Auditoriyada «sovet adamı» anlayışının absurdluğunu sübut edirdi. Ədəb. ictimaiyyətin, tarixçilərin vəsf etdiyi «26-lar»ın Azərbaycana vurduğu zərbələri üstüörtülü eyhamlarla bizə çatdırırdı. Mətbuat tarixini, mədəniyyət tarixini Təbrizdən başlayırdı, mühacir mətbuatının yaradıcılarından söz açırdı.

Şirməmməd müəllim istedadlı tələbəni aşağı kursdan öz nəzarətində saxlayır və o tələbə mütləq axırda ya aspiranturada, ya da fakültədə qalmalıdır. Mərhum professorlar Qulu Xəlilli, Famil Mehdi kimi ustadlar onun auditoriyadakı tapıntıları idilər.

Bu gün fakültənin dekanı, dosent Y.Əlizadə, Beynəlxalq jurnalistika kafedrasının müdiri N.Əhmədli, uzun müddət fakültənin dekanı olmuş dosent A.Rüstəmov, mən – C.Məmmədli Şirməmməd müəllimin himayədarlığı ilə (mən bu yerdə «himayədarlıq» sözünü qürur duyaraq işlədirəm) fakültədə yer tutmuşuq.

Adama çox müəllim dərs deyir. Amma hər dərs deyəni də müəllim kimi qəbul etmək olmur. Şirməmməd müəllimin tələbələri (istisnasız olaraq hamısı) onu özlərinin təkcə peşə müəllimi deyil, həm də və daha çox həyat müəllimi adlandırırlar.

Ş.Hüseynov həyatının bütün zamanlarında heç vaxt, heç kimə əyilməyib. Çox çətin anlar da yaşayıb, bəzən əlində böyük imkanlar olub, amma məsləkinə, müəllim adına, insan adına ləkə gətirən bir addım atmayıb. Onun təmiz və saf dünyası universitet həyatına sirayət edib və ən azı jurnalistika fakültəsində təmizlik məktəbinin binasını qoyub. Bu böyük müəllimin böyük də dostları var. Zəmanəmizin ən böyük şairi Bəxtiyar Vahabzadə alim-publisistin «Müstəqilliyin çətin yolu...» kitabına yazdığı ön sözdə belə deyir: «Mən bu kitabda toplanan məqalələrin böyük əksəriyyətini vaxtilə müxtəlif qəzet səhifələrində oxumuşam. İndi toplu halda oxuyanda toxunulan məsələlərlə və bu məsələlərə

müəllif münasibətilə tanış olduqca bütün bu yazıların içindən keçən vahid bir xətt görürəm. Bu xətt bunları yazan müəllifin vahid prinsipi, fikri və əqidəsidir. Bu prinsip, bu baxış və bu əqidə məqalədən-məqaləyə dərinləşir və 50 ilə yaxın bir müddətdə tanıdığım əqidə qardaşım Şirməmməd Hüseynovun vətəndaş obrazını tamamlayır. Şirməmmədi yaxından tanıyan çox yaxşı bilir ki, onu ömrü boyu tutduğu yoldan, tapındığı əqidədən qoparmaq, heç olmasa, bir balaca laxlatmaq belə mümkün deyil. O, inandığına inanır, nifrət etdiyinə sona qədər nifrət edir, sevdiyini isə tərəddüdsüz sevir. Bir sözlə, qələmindən çıxan bütün yazılarının arxasından onun sınmaz, dönməz, əyilməz şəxsiyyəti boylanır». B.Vahabzadənin qürurla, vətəndaş məhəbbəti, vətəndaş arxayınçılığı ilə dediyi bu fikirlər hər kəsdən çox müəllimə vacibdir. Ş.Hüseynov barədə sərrast deyilən bu fikirləri illərin şahidi kimi Qurani-Kərimə əl basaraq təsdiqləyərdim...

Ş.Hüseynov tədqiqatçıdır. Sözün həqiqi mənasında namuslu tədqiqatçıdır. Riyazi dəqiqliyə və bir də vətəndaş qayəsinə söykənən tədqiqatçı. O, 800-dən çox elmi-publisist məqalənin, 15-dən çox kitab və monoqrafiyanın müəllifidir. Sovet senzurasının ən qatı nəzarət çağında belə o öz tədqiqatlarında Azərbaycan vətəndaşı olduğunu, bu əsərləri gələcək nəsillərə ünvanladığını heç vaxt unutmayıb.



Ayrı-ayrı müəlliflərlə birgə yazdığı kitablarda onun öz üslubu, öz xətti, dəqiqliyi, məsuliyyət hissi həmişə ayrıca hiss olunub. Moskvanın «Mısl» nəşriyyatında iki dəfə (1972, 1975) nəşr olunan «Многонациональная советская журналистика» kitabında onun Azərbaycan mətbuatı tarixinə həsr olunan böyük həcmli məqaləsi xüsusi çəkisi və milliliyə bağlılığı ilə seçilirdi.

Şirməmməd Hüseynovun tələbələri onun seminarlarında ədəbiyyat qıtlığı hiss etmirlər. Onun mətbuat tarixi ilə bağlı monoqrafiyaları, məqalələri kifayət qədər tələbənin köməyinə çatır.

Ş. Hüseynov müəllimlik və tədqiqatçılığı, müəllimlik və publisistliyi öz yaradıcılığında sinxron ifadə edir. Onun öz sözüdür: «Jurnalistikadan dərs deyib publisist olmamaq necə mümkündür? Özün mükəmməl tədqiqatçı olmasan, tələbəni bu işə necə istiqamətləndirə bilərsən?»

Şirməmməd müəllim bu sahələrin hər birində nümunədir. O, ömrünün bütün çağlarında fəal olub və o fəallığı səksən yaşında da eyni ehtirasla davam etdirir. Söz və mətbuat azadlığına qənim kəsilən sovet senzurası şəraitində belə həmişə öz obyektiv elmi, publisistik sözünü deməyi bacarmış Ş.Hüseynovun ən məhsuldar yaradıcılıq çağı Azərbaycanın yeni müstəqilliyi uğrunda mübarizə tarixinə düşür. 1985-ci ilin

aprelindən başlayan yenidənqurma, aşkarlıq və demokratiya şüarı nə qədər saxta və kosmetik xarakter daşısa da, Şirməmməd Hüseynov xalqa öz sözünü demək və onu müstəqilliyə səsləmək üçün bu məqamdan maksimum istifadə edənlərdən oldu. O, Türkiyəyə açılan qapıların ilk yolçularındandır. M.Ə.Rəsulzadənin bu ölkədəki siyasi fəaliyyətini, Azərbaycan mühacir mətbuatının Türkiyə səhifələrini ilk açan alimlərdən oldu. Ermənistanın Azərbaycana təcavüzünün ilk çağlarında Ermənistanlı soydaşlarımızın vəziyyətilə tanış olmaq üçün birbaşa hadisə yerinə – Ermənistana yollandı. Bu hadisələri siyasi bucaqdan araşdıran Ş.Hüseynov Azərbaycan televiziyasında, radioda, mətbuatda çox böyük publisist işi gördü. Onun müsahibələri, ictimaiyyətlə çoxsaylı görüşləri, erməni xislətini klassik üslubda ifşa edən publisist yazıları o zamanın çox karına gəldi. Bu böyük və işgüzar yaradıcı fəaliyyət publisist alimin 1996-cı ildə nəşr olunan «Müstəqillyin çətin yolu...Biz hara gedirik?» adlı fundamental elmi-publisist kitabında öz əksini tapmışdır Bu kitab Ş.Hüseynovun bir alim – vətəndaş, bir publisist – vətəndaş kimi Azərbaycan problemləri ilə bağlı 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərindəki onlarca, yüzlərcə əsərinin yalnız bir hissəsidir. Adından da göründüyü kimi, bu əsər Azərbaycanın müstəqilliyi uğrunda mübarizə



illərinin publisist, alim, vətəndaş fədakarlığının faktlarını özündə daşıyır.

Ş. Hüseynov son 20 ildə mətbuat tədqiqatçılığının çox mühüm və maraqlı bir üsulunu yaratmış və inkişaf etdirmişdir. O, Azərbaycan klassik publisistlərinin üzərinə qadağalar qoyulmuş, sovet dövründə yenidən çapına imkan verilməmiş əsərlərini arxivlərin, saralmış qəzet komplektlərinin dərin qatlarından çıxararaq özünün xüsusi və həm də heyrətamiz dərəcədə müasirləşdirilmiş şərhləri ilə yenidən oxucuya təqdim edir. M.F.Axundovdan başlamış M.Ə.Rəsulzadəyə qədər gedən bir yolun ən gizli publisist anları onun qələmində yenidən dirçəlir və müasirlik, aktuallıq keyfiyyətini üzə çıxarır. Bununla da, tədqiqatçı Ş.Hüseynov publisistikanın yalnız yarandığı zaman üçün yararlığı kimi bir stereotip müddəanın üstündən xətt çəkir və əsl publisistikanın həmişə aktual olduğunu sübut edir.

Ş.Hüseynov mətbuat tarixinin hər faktını deyil, xalqın həm dünəni, həm də bu günü üçün yararlı olan, nəsillər tərbiyə etmiş və nəsillər tərbiyə etmək gücünə malik əsərləri yenidən dirçəldir. H.Zərdabinin, Ə.Ağaoğlunun, Ə.Hüseynzadənin, C.Məmmədquluzadənin, M.Ə.Rəsulzadənin, Ü.Hacıbəylinin, C.Hacıbəylinin... və digər neçə-neçə publisistin əsərlərinin aktual ruhu onu ilhama gətirən sənət əsəri kimi qiymətləndirilir.

Ş.Hüseynov Azərbaycan müstəqilliyinə pay vermiş hər kəsin vurğunudur. Azə0rbaycan Xalq Cümhuriyyəti dövrünü və bu dövrün ictimai xadimlərini onun qədər sevən, onların publisistikasını onun qədər ehtirasla və elmi məntiqlə təhlil edən, təqdim edən ikinci bir araşdırıcı tapmaq çətindir. O, Xalq Cümhuriyyətinin ən böyük şəxsiyyəti M.Ə.Rəsulzadənin əsərlərini zərrə-zərrə topla-maq və nəşr etmək işində qəhrəmanlıq qədər böyük iş görmüşdür. Bu böyük öndərin əsərləri toplusunun iki cildi Ş.Hüseynovun təqdimi ilə oxucuların ixtiyarındadır. Qalan cildlər isə onun tərtibatında öz çapını gözləyir.

Ş.Hüseynov özü dəqiq, məsuliyyətli namuslu tədqiqatçı olduğu üçün mətbuat tarixi ilə bağlı bütün araşdırmalara böyük tələblə yanaşır. «Molla Nəsrəddin» jurnalının 1983-ci ildə təkrar nəşr olunan 1906-1907-ci illəri əhatə edən birinci cildində Azərbaycan sovet senzorları tərəfindən aparılan «ideoloji cərrahiyyə» əməliyyatına onun elə o zaman necə əsəbləşdiyinin ancaq şahidi olmaq lazım idi. Ü.Hacıbəyovun sovet dövrü nəşrlərində senzura təhriflərindən indi də yana-yana danışır və ədibin əsərlərinin yeni nəşrində onları aradan qaldırmağa kömək etmək zəhmətini də bir vətəndaş qeyrətilə öz üzərinə götürmüşdür.

Böyük MÜƏLLİMİMİZİN 80 illik yubileyi qarşısında əsərlərinin onun özündən gizli (adətən o heç bir yubiley tədbirinə imkan vermir) biblioqrafiyasını hazırlayarkən heyrətamiz bir rəqəmlə rastlaşdıq: Ş.Hüseynovun 650-dən çox elmi məqaləsi vardır.

Bu sadəcə rəqəm deyil. Həmin məqalələrin hər biri çox ciddi, fundamental elmi əsər səviyyəsindədir.

Ömrünün 80 yaşına qədəm qoymaqda olan müəllimimizin ən məhsuldar dövrü hələ indən belə başlayır. Bu gün onun «Günay» qəzetində öz guşəsi var. Bu qəzetin hər nömrəsində klassik jurnalistikamızda sirli bir aləm təşkil edən publisistik nümunələr onun şərhi və təqdimatı ilə oxucunu heyran qoymaqdadır.

Ş.Hüseynov yaratdığı, yaşatdığı bir kafedranın – mətbuat tarixi kafedrasının professorudur. Bu kafedra onun sözü və məsləhətləri ilə, onun tədris metodikası və elmi tədqiqatları ilə fəaliyyət göstərir.

Azərbaycan jurnalistikasında müəllimliyi, tədqiqatçılığı və publisistikanı yeni məktəb səviyyəsinə yüksəldən Şirməmməd Hüseynov yaradıcılığı peşəkar jurnalist nəslinin söykəndiyi ən etibarlı mənbə kimi qiymətlidir.

**C. Məmmədli**

**Bakı Dövlət Universiteti Mətbuat tarixi kafedrasının müdiri, dosent**

# Şirməmməd Ağaməmməd oğlu Hüseynov

## *Həyat və fəaliyyətinin əsas məqamları*

| | |
|---|---|
| *1924-cü il, 17 dekabr* | Şirməmməd Ağaməmməd oğlu Hüseynov Şəki şəhərində anadan olmuşdur. |
| *1940-cı il* | Şəki şəhər 2 №li orta məktəbi bitirmişdir. |
| *1941-1943-cü illər* | Şəki 2 illik müəllimlər institutunun fizika-riyaziyyat fakültəsində oxumuş və bitirmişdir. |
| *1943-cü il, mart-1944-cü il, iyun* | Zaqatalanın Varxian, Şəkinin Aşağı Göynük və Oxut orta məktəblərində fizika-riyaziyyat müəllimi işləmişdir. |
| *1944-cü il iyun, 1945-ci il avqust* | «Nuxa fəhləsi» qəzetində ədəbi işçi |



| | |
|---|---|
| *1945-1950-ci illər* | Azərbaycan Dövlət Universitetinin filologiya-jurnalistika şöbəsində təhsil almışdır. |
| *1947-ci il, aprel* | ADU-nun «Lenin tərbiyəsi uğrunda» qəzetində redaktor müavini işləmişdir. |
| *1948- 1950-ci illər* | «Azərbaycan müəllimi» qəzetində şöbə müdiri işləmişdir. |
| *1950-1954-cü illər* | M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsinin aspiranturasında təhsil almışdır. |
| *1954-cü il, 25 iyun* | M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsinin Elmi Şurasında, MDU mətbuat tarixi ka-fedrasının müdiri, professor İ.A.Portyankinin rəhbərliyi ilə «Azərbaycan mətbuatı 1917-1918-ci illərdə» mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. |



M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

| | |
|---|---|
| *1954-1961-ci illər* | Filologiya fakültəsi jurnalistika kafedrasının baş müəllmi, sonra dosenti |
| *1961-1971-ci illər* | Jurnalistikanın nəzəriyyə və təcrübəsi kafedrasının dosenti |
| *1971-1988-ci illər* | Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının dosenti |
| *1962-1969-cu illər* | ADU, Filologiya fakültəsinin dekan müavini1971-1976-cı illər ADU, jurnalistika fakültəsinin dekanı |
| *1976-1980-ci illər* | Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının müdiri |
| *1988-2004-cü illər* | Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının professoru |



**MƏRUZƏLƏR, ÇIXIŞLAR**
**(respublikadan kənar)**

| | |
|---|---|
| *1966-cı il* | Jurnalistlərin Beynəlxalq Konfransı (Praqa) |
| *1972-ci il* | Moskva Dövlət Universitetində çoxmillətli sovet jurnalistikası problemlərinə həsr olunmuş konfrans (Moskva) |
| *1975-ci il* | Sov. İKP. MK-da SSRİ-də jurnalist kadrlarının hazırlanmasına dair müşavirə |
| *1973-1982-ci illər* | SSRİ Ali Təhsil hazırlığının jurnalistika üzrə elmi-metodik şurasının üzvü, həmin illərdə Moskva, Leninqrad, Kiyev, Sverdlovsk, Vilnyus, Tiflis və Rostov şəhərlərində keçirilən şurada məruzə və çıxışlar |
| *1988-ci il* | SSRİ jurnalistləri tərkibində Türkiyəyə səfər |
| *1996-cı il* | Azərbaycan Xalq Cümhuriyyətinin 78-ci ildönümünə |

hәsr olunmuş elmi-praktik konfrans(Ankara)

## ALDIĞI MÜKAFATLAR

| | |
|---|---|
| *1948-ci il* | «Nizami tәqaüdü» |
| *1966-cı il* | «Qızıl qәlәm» mükafatı |
| *1972-ci il* | «Qızıl qәlәm» mükafatı |
| *1988-ci il* | Respublikanın әmәkdar jurnalisti |
| *1991-ci il* | Zәrdabi mükafatı laureatı |
| *1992-ci il* | Y.Mәmmәdәliyev adına mükafat |
| *1998-ci il* | M.Ә.Rәsulzadә adına mükafat |



# Azәrbaycanın vә xarici ölkәlәrin görkәmli alimlәri Şirmәmmәd Hüseynov haqqında

Әzizim Şirmәmmәd müәllim!

80 illik ömür yolunun 50 ildәn çoxunu bir yerdә çiyin-çiyinә keçdik. Ömür yollarımızın 50 ildәn çoxunu, necә oldu ki, fasilәsiz, zәdәsiz, bәrabәr keçә bildik? Bunun sirri ondadır ki, bizim ömür yolumuz adicә ömür yolu deyildi. Bu, әqidә, amal yoluydu. Bizim ömür yollarındakı birliyimiz dә fikir, düşüncә vә әqidә birliyi idi.

Әziz dostum, sәn vәtәnpәrvәrlik, düzgünlük, haqsevәrlik, gözütoxluq kimi bir çox mәnәvi xüsusiyyәtlәrinlә mәnә hәmişә XIX әsrin sonu, XX әsrin әvvәlindә yaşamış böyük әqidәli ziyalılarımızı xatırlatmısan. H.Zәrdabi milli mәtbuatımızın tәmәl daşını qoydusa, sәn bu böyük işin davamçısı kimi bir neçә jurnalist nәslinin müәllimi olmusan.

Әziz qardaşım, mәndәn «Şirmәmmәd kimdir?» - deyә soruşsalar, mәn 2 misra ilә belә cavab verәrdim:

Şirmәmmәd – әxlaqın,
Haqqın öz sәsi

Ləyaqət, dəyanət
mücəssəməsi!

*Bəxtiyar Vahabzadə*

***Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor, Azərbaycanın xalq şairi***

Əziz dostum, həmkarım, qədim tələbəm Şirməmməd Hüseynova öz kitabımı («Əkinçi»ni) «hədiyyə» verirəm.

«Əkinçi» yubileyinin təşəbbüsçülərindən biri olmağın yadımdan çıxmaz!

*Əziz Mirəhmədov*
***Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor***

...Ölkəmiz üçün, vətənimiz üçün ən həlledici məqamlarda hər zaman Sizin ağsaqqal sözünüz eşidilib, prinsipial mövqeyiniz çoxlarına örnək olub. Siz öz publisistik yazılarınız ilə çoxlarının deyə bilmədiyi mətləbləri, xüsusilə vətən və millət məsələsində vətənpərvər mövqeyini açıq-aydın ortaya qoyursunuz. Siz sözün tam mənasında çağdaş Azərbaycanın böyük müəllimi və böyük ziyalısınız

*Əbülfəz Elçibəy*
***Azərbaycan Respublikasının keçmiş prezidenti***



Əzizim Şirməmməd!

Sənin şəxsində, hərəkət və əməllərində öz istək və arzumun təcəssümünü görürəm. Axı indiki şəraitdə bu cür bütöv və saf xarakterə malik olmaq Suvorovun Alp dağlarını yarmasından heç də asan deyildir. Mənə elə gəlir ki, bu cür xarakterə sahib olmaq böyük qəhrəmanlıqdır, xüsusi istedad əlamətidir, insanlığın nəcib arzularına çatması üçün uzaq-uzaq məsafəsini xeyli ixtisara salmaqdır. Burada Çernışevskinin Raxmetovu yadıma düşür. Böyük mütəfəkkir yazır ki, Raxmetov kimi adamların yolu şəxsi sevinclər üçün kasıb olsa da, şərəflidir: «Bəli, onlar pis adam deyillər. Onlar azdır, lakin bütün insanların həyatını çiçəkləndirən onlardır. Onlarsız bu həyat çürüyərdi, turşuyardı. Onlar azdır, lakin onlar bütün insanlara nəfəs verirlər, onlarsız insanlar boğulardılar. Namuslu və xeyirxah insanlar kütləsi böyükdür, Raxmetov kimi adamlar isə azdır. Lakin namuslu və xeyirxah insanların arasında onlar çayın ətri, gözəl şərabın atəşidir. Kütlənin qüvvəsi və gözəlliyi onlardır. Onlar ən yaxşı insanların yaxşısıdır, mühərriklərin mühhərikidir, dünyanın canının canı, cövhərinin cövhəridirlər». Mən heç mübaliğə etmədən, qəlbimə heç bir qara hiss yaxın qoymadan sən Şirməmməd Hüseynovu da tərəddüdsüz, bu cür adamlardan, müasir

raxmetovlardan biri sayıram. Madam ki, belədir, onda yalançılılığa, riyakarlığa, dələduzluluğa, çirkaba, üfunətə, ikiüzlülüyə, yaltaqlığa...qarşı mübarizədə məni də özünlə çiyin-çiyinə gör. Arzu edirəm ki, bu şərəfli işdə sevinc və xoşbəxtlik, nəşə və müvəffəqiyyət daimi yol yoldaşın olsun!

*Qulu Xəlilov*
***Filologiya elmləri doktoru, professor***

Şirməmməd Hüseynov «Müstəqilliyin çətin yolu...Biz hara gedirik?» adlı kitabında həqiqətpərvərliyi, demokratizmi, düzlük və cəsarəti, vətənə, xalqa məhəbbəti ailə ilə birlikdə həqiqi təhsil görmüş müəllimlərindən – ziyalılardan əxz etdiyini bildirir. 1954-cü ildə Moskva universitetində aspirantura təhsilini başa vurub namizədlik dissertasiyasını müdafiə etdiyi və Bakı Dövlət Universitetinin jurnalistika şöbəsində fəaliyyətə başladığı gündən indiyə kimi öz tələbələrinə dərin milli-demoktarik təsirini qeyd etmək yerinə düşərdi.

O son illərdə xüsusilə gərgin işləyir. Universitetdə pedaqoji işlə yanaşı, qəzet-jurnallarda beynəlxalq həyatın, milli hərəkatın, milli müstəqillik və dövlətçiliyin, klassik demokratik-publisistik ənənələrin problemləri ilə əlaqədar çıxış edir, böyük öndərimiz Məmməd Əmin Rəsulzadənin çoxcildlik əsərlərinin tərtibi və nəşri ilə məşğul olur. Şirməmməd müəllim elmdə, siyasətdə havayı güllə atanlardan deyildir. O zaman söz silahına sarılır ki, ürəyində deməmək mümkün olmayan sözü, zirehi dəlib keçən gülləsi hədəfi sərrast seçir. Haqqında söz gedən kitab da hər şeydən əvvəl vətəndaş, alim-pedaqoq və publisistin uzun illər elmi-siyasi axtarışlarının, müxtəlif, rəngarəng formalı, üsullu demokratik mübarizəsinin, milli xalq hərəkatında fəal iştirakçının yekunları kimi ortaya çıxmış və böyük rəy doğurmuşdur.

Bu kitab hansı janrdadır: sənədli siyasi roman və ya povestidir? Dərslik, yoxsa monoqrafiyadır? Bəlkə ayrı-ayrılıqda bunların heç biri deyildir, hamısının birgə sintezidir, desək səhv etmərik. Buna görə də oxucunun əqlinə və hissinə hakim kəsilir, onu düşünməyə, təkrar düşünməyə vadar edir. Müəllifin seçdiyi forma orijinal olduğu qədər də cəlbedicidir. Böyük fikir və ideyaların, ağıllı mülahizə və mübahisələrin hərtərəfli və əhatəli ifadəsi üçün geniş imkan yaradır.

***Famil Mehdi***
***Filologiya elmləri doktoru, professor***

Bəxtiyar Vahabzadəyə
Əziz müəllim!

Qəzet vasitəsilə Sizin məktubunuzu, uzaqgörən şerlərinizi və Şirməmməd müəllimin ürəkdən gələn şərhini alıb oxuyanda çox sevindim. Bütün bunlar mənə 87-ci ilin noyabrındakı görüşümüzü xatırlatdı:

«Bir anın içində uçub
məhv olur,
Yüz illik, min illik
imperiyalar».

Bu misralarınızı dəfələrlə təkrar oxudum. Qazaxıstan gənclərinin 1986-cı ildəki məğzi etibarilə SSRİ-də ilk demokratik aksiya olan dekabr etirazlarının əhəmiyyətini Sovet İttifaqında heç bir şair belə ucadan və aydınlıqla deməmişdi.

Bu yaxınlarda Sizi və Bakıdakı başqa dostlarımı görməkdən çox məmnun qaldım. Heydər Əliyevlə görüş məndə xoş ovqat yaratdı. Allah onu salamat eləsin. Onunla görüşdən sonra Azərbaycanın çətinliklərin öhdəsindən gələcəyinə məndə dərin inam yarandı.

Bir daha Sizi, yaxınlarınızı, Ştrməmməd müəllimi bərk-bərk bağrıma basıram.

*Oljas Süleymenov*
*Qazaxıstanın xalq şairi*

Əgər məndən xəbər alsaydılar ki, son əsrin ən yüksək bəşər və milli şüurlu, vicdanlı Azərbaycan jurnalisti kimdir, bir an belə



düşünmədən Şirməmməd müəllimin adını çəkərdim.

Əsrimizin jurnalistikası əsasən siyasətin carçısı və nökərləri səviyyəsinə «yüksəldilmişdir». Bir-birini gah təsdiqləyən, gah inkar edən böyük və kiçik, uzun və qısa ömürlü jurnalistlərimiz olmuşlar və vardırlar. Amma Şirməmməd müəllim kimilərini tapmaq çox çətindir.

*Nurəddin Rzayev*
**Tibb elmləri doktoru, professor**

Yaxşı müəllim millətin xoşbəxt gələcəyi deməkdir.

...Şamil müəllimin seçdiyi və bu kitabı ilə yenidən tarixə saldığı şəxsiyyətlər hamısı tarixə düşəsi adamlardır. Onlar böyük alim, gözəl pedaqoq və qayğıkeş insanlar olmuşdur. Qalanları da həmçinin. Bunlardan professor Pənah Xəlilov, Əzizə Cəfərzadə, Şirməmməd Hüseynov, Gülhüseyn Hüseynoğlu mənim hörmət elədiyim adamlardır.

(Ş.Qurbanovun «Müəllimlər» kitabına yazılmış giriş məqaləsindən)

*Misir Mərdanov*
*Azərbaycan Respublikasının Təhsil Naziri*

Dönməz iradə və dərin təfəkkür sahibi, sevimli eloğlum Şirməmməd Hüseynova sayğı və ehtiram əlaməti olaraq!

*Yaqub Mahmudov*
*Tarix elmləri doktoru, professor,*
*millət vəkili*

«Millətin mənəvi varlığının əlamətlərindən biri kimi bizə əlifba bayramı vacibdir» – yoxsa böyük millət M.Ə.Rəsulzadə nahaqdan belə bir arzunu istəməzdi.

M. Ə. Rəsulzadənin dəyərli məqaləsini ictimaiyyətimizə təqdim etdiyi üçün bir dilçi kimi prof. Ş.Hüseynova minnətdarlığımı bildirirəm.

*Tofiq Hacıyev,*
*Azərbaycan Milli Elmlər Akademiyasının*
*müxbir üzvü, professor*

Şirməmməd müəllim elin fədaisidir. Xüsusən milli məfkurəmizin – azərbaycançılığın banisi, milli istiqlalımızın «böyük mürşidi» Məhəmməd Əmin Rəsulzadənin irsinin öyrənilib təbliğ edilməsində Şirməmməd müəllim misilsiz xidmət göstərir.

«Türk tarixi tarixlərin ən az tədqiq olunmuşu, ən az öyrənilib yazılmışdır... Bu xüsusda biz azərbaycanlılar hamıdan çox işıqlanmaq ehtiyacındayız» (M. Ə. Rəsulzadə). Sənədlər və digər tarixi mənbələr tarixin tədqiqinin təməl daşını təşkil edir. M.Ə.Rəsulzadənin əsərləri milli tariximizin bütöv bir dövrünü öyrənmək üçün qiymətli mənbədir, etibarlı bələdçidir.

*Tofiq Köçərli*
*Tarix elmləri doktoru, Azərbaycan Milli*
*Elmlər Akademiyasının akademiki*

...H.Zərdabi yeni başlanan, yeni formalaşan hələ barmaqla sayılıcıq qədər az, lakin siyasi və mənəvi yükü sayından çox-çox böyük olan bir ziyalı mühitinin başında dayanırdı. XXI əsrin əvvəllərində Şirməmməd müəllim isə bilgisayarla sayılacaq qədər geniş bir ziyalı dairəsinin içində tənhadır. Tənhadır-gördüyü işlərin milli qayəsinə, atdığı addımların ictimai mahiyyətinə görə. Sözün həqiqi mənasında elə sözün özünü üzə deyən, düzünü dilə gətirən bu böyük kişi təmtəraqsız ömrünü millət üçün yaşadı. Şirməmməd müəllim bəlkə də heç kəsin görə bilməyəcəyi elə işlər gördü ki, həmin illər millətin yaddaşını təzələdi, bu gününü dayanıqlı, sabahını etibarlı etdi.

*Cəmil Həsənli*
*Tarix elmləri doktoru, professor,*
*millət vəkili*

...Gördüyümüz çoxlu və çox faydalı işlərlə siz çağdaş gəncliyin milli şüurunun oyanmasına

güclü təsirlər göstəribsiniz. Tarix və qananlar bunun qiymətini əlbəttə ki, verəcək!

*Rəfael Hüseynov*
*Filologiya elmləri doktoru, professor,*
*millət vəkili*

Onda biz uşaq idik, gənc idik, bəs böyüklərimiz? Yəni zamanın tarixini yazan jurnalist müəllimlərimiz də bilmirdilər ki, bu bayram tamaşasında öz köləliyimizə, hüquqsuzluğumuza, əsarətdə olmağımıza hurrey deyib əl çalırıq? Bu gün yaradıcılığına və şəxsiyyətinə hörmət etdiyimiz ziyalılar o vaxt bizə partiyalı mətbuatdan dərs deyirdilər. Yeganə bir inqilabçı müəllimimiz vardı ki, o zaman adı ancaq universitetlə bağlı adamlara və yəqin ki, DTK əməkdaşlarına məlum idi — indi ən yaxşı şərhçilər sırasında tanınan Şirməmməd Hüseynov. Beş illik tələbəlik dövründə təkcə o bizi inqilaba, azadlığa, müstəqilliyə səsləyirdi. Təkcə o düzə düz, əyriyə əyri deyirdi. O, bütün inqilabi dəyişiklikləri irəlicədən görürdü və öz inamını, öz arzularını qətrə-qətrə bizə də yeridirdi. Bax belecə gözümüz açılırdı onda.

*Afaq Məsud*
*Yazıçı-publisist*



Mən Şirməmməd müəllimi ədalət tərəfdarı, prinsipiallıq meyarı kimi çox istəyirəm.

*Vaqif Bəhmənli*
*Şair-publisist*

Şirməmməd Hüseynovla keçən əsrin altmışıncı illərinin əvvəlində Azərbaycan radiosunun «Son xəbərlər» redaksiyasında çalışdığım zaman tanış olmuşam və o zamandan bu günə kimi onu vətənpərvər və prinsipal, istedadlı və orijinal jurnalist, alim və müəllim kimi tanıyıram.

O vaxt biz radioya nə isə bir yenilik, bir nəfəs gətirmək fikrinə düşmüşdük və heç kəsdən icazə almadan xəbərlərin içində beynəlxalq mövzuda beynəlxalq mövzuda şərhlər vermək qərarına gəldik. Bu sahədə mütəxəssis isə yox idi. Şirməmməd müəllimin Son xəbərlərdə çalışan tələbələrinin məsləhətilə bu işə onu dəvət etdik və yanılmadıq.

O zamanlar belə işə başlamaq asan məsələ deyildi. Çünki beynəlxalq mövzu Moskvanın monopoliyasında idi. Biz isə təhlükəli bir işə girişmişdik. Nəticəsi pis olmadı. Şirməmməd müəllimin fəal iştirakı ilə «Dünya həftə ərzində» daimi proqram efirə getməyə başladı və bu sahədə fəaliyyətimiz genişləndi. Şirməmməd müəllim daimi əməkdaşımız oldu və onun

beynəlxalq mövzuda şərhləri və xülasələri tez bir vaxtda radiodinləyicilərin rəğbətini qazandı.

Şirməmməd Hüseynovun bir jurnalist və tədqiqatçı kimi ən böyük xidmətini Azərbaycan Xalq Cümhuriyyətinin tarixini araşdırmasında görürəm. O heç bir yardım almadan bu cümhuriyyətin banisi M.Ə.Rəsulzadənin irsini böyük çətinliklərlə axtarıb tapmış və onun əsərlərini çap etməyə başlamışdır.

Bu, əvəzedilməz fədakarlıqdır.

*Hacı Hacıyev*
*Azərbaycan Jurnalistlər Birliyinin sədri*

BDU-nun jurnalistika fakültəsi bəlkə də yeganə yerdir ki, heç bir müəllim heç bir tələbə qarşısında gözükölgəli deyil. Bunu məzunlar da təsdiq edə bilər, bugünkü tələbələr də. Və bu halallıq ənənəsinin müəllifi məhz uzun illər fakültədə müxtəlif rəhbər vəzifələrdə işləmiş professor Şirməmməd Hüseynovdur.

Bu gün jurnalistika fakültəsinin müəllimləri ağır iqtisadi durum qarşısında əyilməmək, sınmamaq üçün öz əsas iş yerləri ilə yanaşı, ya bir neçə özəl universitetdə də dərs deyir, ya da müxtəlif informasiya vasitələrində çalışaraq başlarını əvvəlki kimi yenə də dik tuturlar. Buna görə də hárada işləmələrindən asılı olmayaraq fakültə məzunları öz müəllimlərinə halallıq nümunəsi kimi baxır, həmişə onların yolunu saxlayırlar. Və bütün bunlar Şirməmməd müəllimin böyük xidməti kimi qiymətləndirilməlidir.

*Nəsir Əhmədli*
*Filologiya elmləri namizədi, dosent*

Amerikanın kütləvi informasiya vasitələrinin cəmiyyətin həyatındakı yerini, rolunu, quruluşunu, fəaliyyət prinsiplərini, təcrübəsini öyrənmək üçün bir sıra mühazirələr, görüşlər təşkil olunmuşdu. Vaşinqtonla ümumi tanışlığın səhərisi gün bu şəhərdəki jurnalist klubunda «Amerikada azad mətbuat» mövzusunda mühazirəyə qulaq asdıq. Paytaxtdakı universitetlərin birindən dəvət olunmuş professor Amerika mətbuat sistemi barədə geniş məlumat verdi.

Bəri başdan deyim ki, bu mühazirə 12 – 13 il əvvəl Bakı Dövlət Universitetində təhsil aldığım illərdə professor Şirməmməd Hüseynovun Amerika mətbuatı barədə dediklərinə təzə heç nə əlavə etmirdi.

*Qulu Məhərrəmli*
*Filologiya elmləri namizədi, dosent*

Многоуважаемый Ширмамед!

Когда приступим к переизданию, обязательно воспользуемся вашими советами по линии азербайджанской печати.

***Ефим Маркович Фингерит***
***Доцент МГУ им. М.Ю.Ломоносова***

В Тбилисских архивах, библиотеках и книгохранилищах не имеется ни одного номера газеты «Коч-Девет» и «Текамюль». Поэтому вся надежда теперь на тебя.

***Джумбер Ватиашвили***
***Профессор Тбилисского***
***Государственного Университета***

BDU-nun keçmiş Kommunist küçəsində yerləşən korpusunda jurnalistika fakültəsində təhsil aldığım vaxtlar yadımda qalan çoxlu hadisələr var. Amma ən yadımda qalanı professor Şirməmməd Hüseynovun bizim qrupa dörd qoşa saat dediyi mühazirələriydi ki, elə o mühazirələrə qulaq asa-asa haçansa Şirməmməd müəllim haqqında mütləq yazacağımı qət eləmişdim. Və həmin o yazının adını da dəqiqləşdirmişdim: «Dörd qoşa saat».

Hələ məşhur yenidənqurmanın başlanğıcında dörd qoşa saat «Burjua jurnlalistika»sının mahiyyətini anladan Şirməmməd müəllim həm də bir az ezop diliylə,



bir az sətiraltı sözlərlə, bir az mimikayla sovet mətbuatıyla burjua mətbuatı arasındakı fərqi bizə çox aydınca başa salmışdı. Və bu sətirlərin müəllifinin dünyagörüşündə ilk dəyişik çalarlar, demokratik cücərtilər də, deyəsən, elə o vaxt oyanmağa başlamışdı...

***Rəşad Məcid***
***«525-ci qəzet»in baş redaktoru***

Tanınmış Azərbaycan ziyalısı, möhtərəm Şirməmməd bəy Hüseynova Misir Humanitar Yardım təşkilatının Azərbaycan filialı adından Şəki səfərindən xatirə!

***Əhməd Urabi***
***Misir Humanitar Yardım Təşkilatının***
***Azərbaycan üzrə keçmiş direktoru***

Mənim təhsil aldığım illər ADU-ya mərhum akademik Yusif Məmmədəliyevin rəhbərlik etdiyi vaxtlara düşür. Cəfər Xəndana, Həsən Şahgəldiyeva, Səlim Cəfərova, Məmməd Arifə, Məmməd Cəfərə, Mir Cəlala, İsmayıl Əlizadəyə, Şirməmməd Hüseynova həmişəlik minnətdaram.

***Rəfiqə Mustafayeva***
***Pedoqogika elmləri doktoru, professor***

Hələ imperiya dövründə belə Ş.Hüseynov özünün demokratik, cəsarətli, aydın və müstəqil

fikirləri ilə seçilmiş bir insan kimi o dövrkü rəhbərlik tərəfindən dəfələrlə təqibə məruz qalıb. Lakin o, Azərbaycanın müstəqilliyi yolunda ön xətdə duraraq ardıcıl və cəsarətli mübarizəsindən çəkinməyib.

*Sevda Sabirqızı*
*Jurnalist*

Gəlimli-gedimli dünyada insanın sitayiş etdiyi, həmişə xidmətində durmağa can atdığı üç unudulmaz, ülvi doğması olur: Ulu Tanrı, Valideyn və Müəllim. Azərbaycan jurnalistlərinin böyük bir nəslinin yetişməsində əvəzsiz xidmətləri olan Şirməmməd müəllim də belə doğmalardandır.

*«Alternativ» qəzeti*

...Həyatda zahiri görkəminə və əməlinə görə hərəni kiməsə oxşadırlar. Kimini dayısına, kimini atasına, kimini əmisinə, yaxud müəlliminə. Şirməmməd Hüseynov bəlkə də yeganə şəxsiyyətdir ki, məhz özünə oxşayır. Yəni, elə özüdür ki, var. Nə qədər çalışırıq Şirməmməd müəllimin kiməsə oxşarlığını tapaq, mümkünsüz olur.

*«Təzadlar» qəzeti*

... Hər şeyə elmi məntiqlə, elmi proqnozla yanaşan Şirməmməd müəllimin bu gün



Şirməmməd Hüseynov məktəbi mövcuddur. Bu məktəbdə tələbələrə jurnalistikanın sirlərini öyrətməklə yanaşı, onlara düzlük, təmizlik, sədaqət və səmimiyyət dərsi də keçirilir. Bütöv, saf insan kimi gözəl ad çıxarmış professor 50 ildən artıqdır ki, ali təhsil ocağında çalışır, xalqımıza sədaqətlə xidmət edir. Bəlkə buna görədir ki, onun təhsil verdiyi gənclər daim özlərini sevimli müəllimlərinə bənzədir, həyatda onun kimi pak yaşamağa çalışır və fəxrlə deyirlər: «Biz Şirməmməd müəllimin şinelindən çıxmışıq».

*«Günay» qəzeti*

## Məktublardan sətirlər

Fəxri adınız mübarək, Şirməmməd müəllim, halaldan da halaldır, şirlik də, məhəmmədlik də, müəllimlik də, əməkdarlıq da, jurnalistlik də. Son çıxışlarınız xüsusi alqışlanmağa layiqdir, uğurlar!

*Zeynal Məmmədov*
**Ağdam**

...Sizin plenumdakı çıxışınız (Azərbaycan KP MK-nın plenumu nəzərdə tutulur - tərtibçidən), sözün düzü, nəinki mənim, hətta bütün Azərbaycan xalqının ürəyindəndir. Bizim xalqımıza məhz Sizin kimi sözü düz üzə deməyi bacaran professorlar lazımdır.

*Qulu Əbülfəzov*
**Bakı**

...Sizi hər dəfə dinlədikcə, mən Sizin sözlərinizdə həmişə bir yenilik duymuşam, bir cəsarət duymuşam, bir qeyrət duymuşam, bir həqiqət duymuşam.

Bilirsiniz, Siz lap keçmiş kişilər kimisiniz. O kişiləri deyirəm ki, keçmişdə öz sözlərini kişi kimi deyiblər və tutduqları mövqeləri dəyişməyib.

*Allahverdi İsmayılov*
**Naxçıvan**



Xalqımızın qeyrətini çəkən, dərdinə yanan ziyalı olduğunuz üçün sizə minnətdarlığımızı bildiririk.

*Hafiz Mehdiyev*
**Mingəçevir**

...Mən Sizin qəzet səhifələrində, radio və televiziyadakı çıxışlarınızı izləyərkən belə qənaətə gəldim ki, xalqın indiki narahat günləri, onun gələcəyi haqqında ürək yanğısı ilə dərindən fikirləşən oğulları çoxdur.

*Kərim Kərimov*
***Dəvəçi***

Siyasi baxışınız və ən nəhayət, cəsarətiniz sizi tanıyanlara az-çox bəllidir. Sizi respublikamızda gedən yeniləşmə prosesinin önündə addımlayan demokratik fikirli bir ziyalı kimi görmək xalqımızın bütün yurdsevər və vicdanlı övladlarının arzusudur. İnanmaq istərdim ki, Sizi bu yoldan heç bir şər qüvvə döndərə bilməyəcək.

*Asif Talıboğlu*
***Bakı***

Bir oxucu kimi Sizin «Jurnalist» jurnalında dərc etdirdiyiniz əsər mübaliğəsiz mən deyərdim ki, bir alim üçün mətbuatımız tarixindən doktorluq müdafiəsini təmin edə bilən elmi əsərdir.

*Yusif Əhmədov*
**Bakı**

# *ƏSƏRLƏRİNİN BİBLİOQRAFİYASI*

## *Kitablar*

1. Газета «Бакинский рабочий» в борьбе за установление Советской власти в Азербайджане.- Москва, изд. МГУ, 1954. (с.1-19)
2. «Правда» и Азербайджан. ( В соавторстве И.С.Искендеров, М.А.Казиев, Н.Макеев и др.) - Баку, изд. Азернешр,1962. (с. 3-381).
3. «Бакинскому рабочему 60 лет». (В соавторстве Н.Макеев, М.А.Акулов, Р.Зейналов и др.) - Баку,изд. «Бакинский рабочий», 1966.(с.3-266).
4. Jurnalistika məsələləri,I hissə. - Bakı, «Maarif» nəşr.,1966. N.Babayev, S.Əliyev, F.Mehdi, T.Rüstəmov ilə birlikdə. (s.3-265).
5. Jurnalistika məsələləri, II hissə.- Bakı, «Maarif» nəşr.,1966. N.Babayev, S.Əliyev, F.Mehdi, T.Rüstəmov ilə birlikdə. (s.3-265).
6. Многонациональная советская журналистика. (В соавторстве И.В.Кузнецов, И.В.Булацкий, К.Ариба и др.) - Москва, изд. «МГУ», 1972. (с.3-371).
7. Многонациональная советская журналистика.(В соавторстве И.В.Кузнецов, И.В.Булацкий, К.Ариба и др.) - Москва, изд. «Мысль», 1975. (с.3-374).



8. Azərbaycan bolşevik mətbuatı, I hissə.- ADU nəşr., 1981. (s. 3-101).
9. Azərbaycan bolşevik mətbuatı, II hissə.- ADU nəşr., 1983. (s.3-89).
10. Azərbaycan dilində ilk bolşevik nəşrləri.- ADU nəşr., 1987. (s.3-81).
11. Həqiqət və ədalət carçısı.- Bakı, «Azərnəşr», 1988. (s.3-191).
12. M.Ə.Rəsulzadə. Əsərləri, I cild. (Toplayanı, transliterasiya edəni, ön sözün müəllifi prof. Ş.Hüseynov).- Bakı, «Azərnəşr», 1992. (s.3-470).
13. Müstəqilliyin çətin yolu, biz hara gedirik?.- Bakı, «Azərnəşr», 1996. (s.3-328).
14. M.Ə.Rəsulzadə. Əsərləri, II cild. (Toplayanı, transliterasiya edəni, ön sözün müəllifi prof. Ş.Hüseynov).- Bakı, «525-ci qəzet».nəşr., 1999, 2001. (s.3-412).
15. M.Ə.Rəsulzadəyə qarşı böhtan *kampaniyasının arxasında kimlər durur? (*B.Vahabzadə, C.Həsənli, N.Yaqublu ilə birlikdə) - *Bakı, «Yeni Müsavat» nəşr., 1998. (s. 4-63)*

## Toplu və jurnal məqalələri


16. Печать Советского Азербайджана. Вестник МГУ. Сер. «Журналистики».- Москва, 1972. (с.28-34).
17. Böyük oktyabr və Azərbaycanda fəhlə sinfi problemi. (Azərbaycan mətbuatı və fəhlə sinfi).- ADU nəşri, 1967. (s.22-24).
18. Mətbuatımızın ilk addımları. – ADU, «Jurnalistika» seriyası, 1973, №1. (s. 41-48).
19. Azərbaycan mətbuatı tarixinin tədqiqinə dair.- ADU, «Jurnalistika» seriyası, 1974, №1-2. (s.41-50).
20. Azərbaycanın ilk kütləvi fəhlə-kəndli qəzetləri. -ADU,«Jurnalistika» seriyası, 1974, №3-4.(s.41-51).
21. Azərbaycan mətbuatı tarixinin öyrənilməsinə dair. - ADU, «Jurnalistika» seriyası, 1975, №3-4. (s. 33-38).
22. «Kənd füqərası» qəzeti. - ADU, «Jurnalistika» seriyası, 1976, №1. (s. 3-11).
23. İstedadlı jurnalist, publisist, redaktor. I məqalə. - ADU, «Jurnalistika» seriyası, 1978, №4.(s.14-23).
24. İstedadlı jurnalist, publisist, redaktor. II məqalə. - ADU, «Jurnalistika» seriyası, 1979, №1. (s.16-24).
25. İstedadlı jurnalist, publisist, redaktor. III məqalə. - ADU, «Jurnalistika» seriyası, 1979, №2.(s.37-44).





26. İstedadlı jurnalist, publisist, redaktor. IV məqalə. - ADU, «Jurnalistika» seriyası, 1979, №3. (s.13-20).
27. Ценный научный труд. - ADU, «Jurnalistika» seriyası, 1977, №4. (s. 57-60).
28. Xarici mətbuat və informasiya orqanları. – ADU, «Elmi əsərlər» jurn. ser. 1978, № 2.(s.50-52).
29. Mətbuat və informasiya orqanları. - ADU, «Jurnalistika» seriyası, 1978, №4. (s.57-59).
30. О псевдонимах и анонимах. Вестник МГУ, сер. «Журналистики». - Москва, 1979, № 5. (с.83-85).
31. О подготовки журналистских кадров в Азербайджане.Вестник МГУ, сер. «Журналистики». - Москва, 1982, № 6.(с.31-37).
32. Qəzet. Azərb.Sovet. Ensik. 1979, III c. (s.131-132).
33. Jurnal. Azərb.Sovet. Ensik. 1980, IV c. (s. 274).
34. Jurnalist təhsili. Azərb.Sovet. Ensik. 1980, IV c .(s.276-277).
35. Jurnalistika. Azərb. Sovet. Ensik. 1980, IV c. (s.277).
36. Mətbuat. Azərb.Sovet. Ensik. 1982, VI c. (s.524-530).
37. «Hümmət» qəzeti. «Müxbir» jurnalı. - Bakı, 1984, №12.(s.3-5).

38. Yenidənqurma və mətbuat. «Müxbir» jurnalı. -Bakı, 1988, №12. (s.7-9).
39. Azərbaycan mətbuatında novruz. «Müxbir» jurnalı. - Bakı, 1989, №3. (s.2-4).
40. Millət, İstiqlal və maarif fədaisi. - «Azərbaycan məktəbi» jurnalı, №1, 1994. (s.3-5).
41. T. Rüstəmov-60. - BDU nəşri. «Dil və ədəbiyyat» jurnalı, 1996, № 3.(s 39-40).
42. M. Ə. Rəsulzadə və Azərbaycan cümhuriyyəti «Azərbaycan» türk kültür dərgisi. - Ankara, 1996, № 302. (s.16-24).
43. Tarixi şəxsiyyətləri siyasi oyunlara qatmayaq. B. Vahabzadə, C. Həsənli. «Azərbaycan» türk kültür dərgisi. - Ankara, 1994, № 295. (s.17-20).
44. Azərbaycan XXI əsrin astanasında müstəqil Azərbaycanın KİV-i (tarix, nəzəriyyə, təcrübə). - Azərb. Elmlər Akadem. Nəşri, 1997. (s.801-803).
45. Qətllə başa çatan mücahid ömrü. - «Xudafərin» jurnalı, Varşava, 1979, №2-3.(s.86-87).
46. M.Ə.Rəsulzadə və «Amerikanın səsi» radiosu. -«Xudafərin» jurnalı, Varşava, 1979, №2-3. (s.87-89).
47. Статьи М.А.Расулзаде о свободе печати Информационный аналитический бюллетень. «Принципы и реальность».- Баку, 1998, №3-4. (с.8-29).



48. Из истории национальной печати Информационный аналитический бюллетень. «Принципы и реальность». - Баку, 1998, №9-10. (с.59-67).
49. Mətbuat nizamnaməsi. Bülleten «Prinsiplər və reallıq». - Bakı, 1998, №7-8. (s.39-49).
50. Demokratiya mədəniyyəti, informasiyalı cəmiyyət və KİV. «Təfəkkür» universiteti. «Elmi əsərlər». - Bakı, 1999,№5 .(s.14-15).
51. Ə.M.Topçubaşov və «Kaspi» qəzeti. Böyük diplomat və siyasi xadim. - «Diplomat» nəşr.,1998. (s.41-54).
52. Mətbuat azadlığı (M.Ə.Rəsulzadə). Bülleten «Prinsiplər və reallıq», 1998, №12. (s.3-25).
53. Açılmamış səhifələr. «Musiqi dünyası» jurnalı. - Bakı, 1999,№1. (s.19-20).
54. *Hüseyn Baykaranın kitabı, istiqlal müzakirələri (N.Rza -70).* - Bakı, «Günəş» nəşriyyatı,1999. (s. 95-96).
55. İki məktub, dostluq düşüncələri. Torpaq dərdli insan. - Bakı, «Şuşa» nəşriyyatı.2000. (s.141-150).
56. M.Ə.Rəsulzadə və Ü.Hacıbəyov. (I məqalə). - «Təfəkkür» nəşriyyatı, Elmi əsərlər, VI buraxılış. 2000. (s.18-25).
57. Milli birlik. Tutacağımız yol...Mədəniyyət dünyası (elmi məqalələr toplusu). - Bakı, 2001. (s.3-10).

38. Yenidənqurma və mətbuat. «Müxbir» jurnalı. -Bakı, 1988, №12. (s.7-9).
39. Azərbaycan mətbuatında novruz. «Müxbir» jurnalı. - Bakı, 1989, №3. (s.2-4).
40. Millət, İstiqlal və maarif fədaisi. - «Azərbaycan məktəbi» jurnalı, №1, 1994. (s.3-5).
41. T. Rüstəmov-60. - BDU nəşri. «Dil və ədəbiyyat» jurnalı, 1996, № 3.(s 39-40).
42. M. Ə. Rəsulzadə və Azərbaycan cümhuriyyəti «Azərbaycan» türk kültür dərgisi. - Ankara, 1996, № 302. (s.16-24).
43. Tarixi şəxsiyyətləri siyasi oyunlara qatmayaq. B. Vahabzadə, C. Həsənli. «Azərbaycan» türk kültür dərgisi. - Ankara, 1994, № 295. (s.17-20).
44. Azərbaycan XXI əsrin astanasında müstəqil Azərbaycanın KİV-i (tarix, nəzəriyyə, təcrübə). - Azərb. Elmlər Akadem. Nəşri, 1997. (s.801-803).
45. Qətllə başa çatan mücahid ömrü. - «Xudafərin» jurnalı, Varşava, 1979, №2-3.(s.86-87).
46. M.Ə.Rəsulzadə və «Amerikanın səsi» radiosu. -«Xudafərin» jurnalı, Varşava, 1979, №2-3. (s.87-89).
47. Статьи М.А.Расулзаде о свободе печати Информационный аналитический бюллетень. «Принципы и реальность».- Баку, 1998, №3-4. (с.8-29).
48. Из истории национальной печати Информационный аналитический бюллетень. «Принципы и реальность». - Баку, 1998, №9-10. (с.59-67).
49. Mətbuat nizamnaməsi. Bülleten «Prinsiplər və reallıq». - Bakı, 1998, №7-8. (s.39-49).
50. Demokratiya mədəniyyəti, informasiyalı cəmiyyət və KİV. «Təfəkkür» universiteti. «Elmi əsərlər». - Bakı, 1999,№5 .(s.14-15).
51. Ə.M.Topçubaşov və «Kaspi» qəzeti. Böyük diplomat və siyasi xadim. - «Diplomat» nəşr.,1998. (s.41-54).
52. Mətbuat azadlığı (M.Ə.Rəsulzadə). Bülleten «Prinsiplər və reallıq», 1998, №12. (s.3-25).
53. Açılmamış səhifələr. «Musiqi dünyası» jurnalı. - Bakı, 1999,№1. (s.19-20).
54. *Hüseyn Baykaranın kitabı, istiqlal müzakirələri (N.Rza -70).* - Bakı, «Günəş» nəşriyyatı,1999. (s. 95-96).
55. İki məktub, dostluq düşüncələri. Torpaq dərdli insan. - Bakı, «Şuşa» nəşriyyatı.2000. (s.141-150).
56. M.Ə.Rəsulzadə və Ü.Hacıbəyov. (I məqalə). - «Təfəkkür» nəşriyyatı, Elmi əsərlər, VI buraxılış. 2000. (s.18-25).
57. Milli birlik. Tutacağımız yol...Mədəniyyət dünyası (elmi məqalələr toplusu). - Bakı, 2001. (s.3-10).

58. Alim dost haqqında bir neçə söz. «Haqqa qovuşan insan». - Bakı, «Gənclik» nəşriyyatı, 2002. (s.186-187).
59.«Şərqi-Rus» - 100. Mətbuat tariximizin iftixar səhifəsi (Elmi praktik konfransın materialları). - BDU nəşriyyatı, 2003. (s.3-9).

## Qəzet məqalələri

*61.* Первая легальная большевитская газета. Газета «Бакинский рабочий», 9 ноября 1955.
62. Mübariz bolşevik qəzeti. «Вперёд». «Kommunist» qəzeti, 4 yanvar 1955.
63. «Бакинский рабочий» qəzetinin 50 illiyi. «Azərbaycan gəncləri» qəzet , 6 may 1956.
64. Боевой орган бакинских большевиков. «За Ленинское воспитание».- Баку, 11 мая 1956.
65. Bolşevik qəzeti. «Ədəbiyyat və incəsənət qəzeti», 5 may 1957.
66. К 40-летию возабновление издания газ. "Бакинский рабочий». Газета «Бакинский рабочий», 5 мая 1957.
67. Böyük alim (Y.Məmmədəliyev) «Azərbaycan gəncləri» qəzeti, 9 mart 1958.
68. Jurnalist alim. «Bakı» qəzeti, 4 oktyabr 1958.
69. Oçerklərimiz haqqında kitab. «Azərbaycan gəncləri »qəzeti, 15 noyabr 1958.



70. «Звезда» qəzeti. «Bakı» qəzeti, 23 dekabr 1960.
71. Xalqın yaradıcı əməyi. «Kommunist» qəzeti, 24 dekabr 1960.
72. İnqilab qığılcımı. «Kommunist» qəzeti, 28 yanvar 1961.
73. Mə'nalı həyat yolu. «Bakı» qəzeti, 24 yanvar 1962.
74. Həqiqət carçısı. «Ədəbiyyat və incəsənət qəzeti», 7 aprel 1962.
75. Lenin və «Pravda». «Sovet kəndi» qəzeti, 7 aprel 1962.
76. Leninçi «Pravda». «Bakı» qəzeti, 9 aprel 1962.
77. «Pravda»nın Bakıda ilk dəfə nəşr olunan nömrəsi. «Kommunist» qəzeti, 11 aprel 1962.
78. «Pravda» və kəndlilər. «Sovet Ermənistanı» qəzeti, Yerevan, 5 may 1962.
79. Правдовое слово партии. Газета «Строитель», 5 мая 1962.
80. Həyat naminə igidlik. «Kommunist» qəzeti, 23 fevral 1963.
81. H.B.Zərdabinin dünyagörüşü. «Kommunist» qəzeti, 5 aprel 1963.
82. Demyan Bednıy Bakıda. «Kommunist» qəzeti, 15 aprel 1963.
*83.* Идейность и правдивость Газета «На страже», 15 января 1965.

84. İki aləm, iki dünya. «Bakı» qəzeti, 30 aprel 1965.
85. İnqilab salnaməsi. «Kommunist» qəzeti, 27 may 1965.
86. Leninçi «Proletari». «Azərbaycan gəncləri» qəzeti, 28 may 1965.
87. Gələcək yeni dünyanındır. «Bakı» qəzeti, 30 aprel 1966.
88. «Azad seçkilər» və real həqiqət. «Kommunist» qəzeti, 12 iyun 1966.
89. Ən böyük ictimai qüvvə. «Bakı»qəzeti, 30 aprel 1967.
